www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-19 (1780) 15 noyabr 2023-cü il



## 8 Noyabr - Zəfər Günü Azərbaycan Tibb Universitetində qeyd olunub

**Prezident İlham Əliyev: Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ, tarixi ədaləti, milli ləyaqətimizi bərpa etdik**

### Türkiyə səfiri ATU-nun rektoru ilə görüşüb

səh. 2

### Orta Asiya Tibb Universitetinin rəhbər şəxsləri ilə görüş keçirilib

səh. 5

### Akkreditasiya meyarları üzrə təlim iştirakçılarına sertifikatlar verilib

səh. 4



### ATU-nun yeni yaradılan kafedrası hesabat verdi

Rektor, professor Gəray Gəraybəyli: "Bu gün kimsə düşünürsə ki 30-40 il əvvəlki kimi fəaliyyət göstərə bilərik, yanılır"

səh. 3

### Şuşanın azad olunması Zəfər yürüşümüzün zirvəsi idi

*Vətən müharibəsində qələbəmizin 3-cü ildönümünə həsr olunmuş Tələbə Elmi Konfransı keçirilib*

səh. 7

### İxtisasyönlü xarici dil bilikləri günün tələbidir

*Xarici dillər kafedrası bu istiqamətdə mühüm işlər görür*

səh. 5



### Almaniyalı professora ATU-nun "Qonaq professor"u sertifikatı təqdim olunub

səh. 2

# 8 Noyabr - Zəfər Günü Azərbaycan Tibb Universitetində qeyd olunub

## Rektor Gəray Gəraybəyli: Şanlı qələbəmiz gənc nəsillər üçün vətənpərvərlik, milli birlik və həmrəylik nümunəsidir



8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan Tibb Universitetinin rəhbərliyi və professor-müəllim heyəti ATU-nun şəhid məzunlarının xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edib. Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhid həkimlərimizin əziz və unudulmaz xatirəsi yad olunub, abidə önünə gül dəstələri düzülüb.

Daha sonra universitetin rəhbərliyi ilə Azərbaycan Tibb Universitetinin əməkdaşları olan şəhid ailəsi üzvləri arasında görüş keçirilib. ATU-nun rektoru, professor Gəray Gəraybəyli II Qarabağ müharibəsinin Azərbaycan xalqının Zəfər salnaməsi, şanlı qələbəmizin gənc nəsillər üçün vətənpərvərlik, milli birlik və həmrəylik nümunəsi olduğunu qeyd edib. Bildirib ki, həm 44 günlük Vətən müharibəsi, həm də bu ilin sentyabr ayında rəşadətli ordumuz tərəfindən həyata keçirilən lokal antiterror tədbirləri Azərbaycanın suverenliyinin tam təmin olunması ilə nəticələnib, eyni zamanda bütün dünyaya Silahlı Qüvvələrimizin gücünü və peşəkarlığını göstərib.

Professor Gəray Gəraybəyli müharibə və antiterror əməliyyatı zamanı ölkəmizin şəhidlər verdiyini, onların arasında ATU məzunlarının da olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, müqəddəs peşə borcunu yerinə yetirərkən şəhidlik zirvəsinə ucalan həkimlərimizin xatirəsi ATU-da daim əziz tutulur. Rektor şəhid ailələrinə göstərilən diqqət və qayğının Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu vurğulayıb.

Tədbirdə iştirak edən şəhid ailələrinin üzvləri onlara göstərilən daimi diqqət və qayğıya görə həm dövlət rəhbərliyinə, həm də ATU-nun kollektivinə təşəkkürlərini çatdırıb, bəzi məsələlərin həlli ilə bağlı arzu və təkliflərini bildiriblər.

ATU rektorunun daim şəhid ailəsi üzvlərini, qazi əməkdaşlarımızı diqqətdə saxladığını bildirən Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov, bu əlamətdar günü Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi, şəhidlərimiz canı və qazilərimizin gücü sayəsində qeyd etdiyimizi vurğulayıb.

Hər iki Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərinin iştirak etdiyi görüşün sonunda rektor, professor G.Gəraybəyli hər bir azərbaycanlı üçün mühüm olan Zəfər Günü münasibətilə hər kəsi təbrik edib, xalqımızın bundan sonra yalnız qələbələr yaşaması arzusunu dilə gətirib.





# "Şəhid həkimlər" kitabının təqdimat mərasimi olub

## Rektor, professor Gəray Gəraybəyli: Xankəndidə hərbi parad keçirilməsi hər birimizə böyük qürur hissi yaşatdı

**Noyabrın 7-də "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin təşkilaçılığı ilə Vətən müharibəsində şəhid olmuş həkimlərin xatirəsinə həsr edilmiş "Şəhid həkimlər" kitabının təqdimat mərasimi keçirilib.**

Əvvəlcə Dövlət Himnimiz səsləndirilib və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunub.

Tədbirin moderatoru, "Murov qartalı" ləqəbli şəhid polkovnik Raquf Orucovun ömür-gün yoldaşı Sevinc Alızadə giriş nitqi ilə çıxış edərək, Zəfər Günü ərəfəsində qürurverici anlar yaşadığımızı vurğulayıb. Bildirib ki, bu günə məşəqqətli yollarla gəldik, amma heç bir zaman usanmadıq, sınmadıq, Azərbaycançılıq məfkurəsindən vaz keçmədik, qələbəyə inamımızı itirmədik: "Bu gün tibb sahəsində böyük uğurlara imza atan ali təhsil ocağına bir zamanlar sizlərin sırasında əyləşən, təhsil alan və sonra "Vətən məni çağırır!" - deyərək döyüşlərə atılan, hərbçilərimizin sağlamlığının keşiyində dayanan qəhrəman şəhidlərimizdən danışmağa gəlmişik. İndi həmin qəhrəmanların ailə üzvləri təbirimizdə iştirak edir və onların hüzurunda ehtiramla baş əyirik. Yazıçı-publisist Ramilə Qurbanlının şəhid həkimlərimizin ailə üzvlərinin xatirələrindən ibarət kitabı ilə görüşünüzə gəlməyi qərara aldıq".

Təkcə peşəkar həkim deyil, həm də lazım gələndə Vətən naminə canından keçməyi bacaran vətəndaşlar yetişdirdiyinə görə Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinə təşəkkürünü bildirən aparıcı, sözü universitetin rektoru, professor Gəray Gəraybəyliyə verib.

Tədbir iştirakçılarını salamlayan rektor, ilk növbədə Zəfər Günü münasibətilə Azərbaycan xalqını təbrik edib: "Azərbaycan xalqının bir çox bayramları var. Ancaq üç ildir ki, tarixi məna daşıyan Zəfər bayramını böyük qürurla qeyd edirik. Zəfər Gününün iki əsas xüsusiyyəti var. Birincisi tarixi, ikincisi isə insani-emosional xüsusiyyətdir. Tarixi xüsusiyyəti ondan ibarətdir ki, ölkə rəhbəri, Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında rəşadətli ordumuz 44 gün ərzində 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızı azad etdi. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında hərbi parad keçiriləcəyini eşidəndə, daha böyük qürur hissi yaşadıq. Onu da qeyd etmək lazımdır ki, bu böyük və çətin qələbənin bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu bayramın insani-emosional xüsusiyyəti isə odur ki, biri-birimizi təbrik edərkən sevinc və kədər hissini birgə yaşayırıq. Bu qələbə, bu zəfər müqəddəs şəhidlərimizin qanı və canı, qazilərimizin sağlamlığı bahasına qazanılıb. Ona görə də bu günü qeyd edərkən ürəyimiz şəhidlərimizə minnətdarlıq hissi ilə dolur".

Təqdimat iştirakçılarını öz adından və Səhiyyə Nazirliyinin adından salamlayan nazir müavini, dosent Nadir Zeynalov qeyd edib ki, Zəfər Günü bayramı xalqımızın müasir tarixində misli görünməmiş bir qələbənin nəticəsidir: "Bu qələbəyə qədər Birinci Qarabağ müharibəsi də daxil olmaqla uzun bir yol keçmişik. Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində tarixi ədalət bərpa olundu. Xalqımız bu yolu keçərkən böyük çətinliklərlə üzləşib, itkilər verib. Ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri, müxtəlif peşə sahibləri öz canlarını qurban veriblər ki, Azərbaycan bu günü yaşaya bilsin. Bu peşə sahiblərinin içərisində tibb işçiləri də xüsusi fədakarlıq göstəriblər".

Əslində ən böyük sözü kitabda haqqında bəhs olunan qəhrəmanların dediyini, ən böyük əsəri onların valideynlərinin yaratdığını vurğulayan kitabın müəllifi Ramilə Qurbanlı auditoriyadakı gənclərin şəhid həkimlərin xatirəsini həmişə əziz tutacağına, kabinetlərində onların portretlərini asacaqlarına inandığını söyləyib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev, şəhid həkim Adil Əfəndiyevin anası Afət xanım, ATU-nun Hərbi tibb fakültəsinin dekanı, polkovnik Çingiz Əlləzov, şəhid həkim Şöhrət Qasımovun anası Mehparə xanım, şəhid həkim Aqşin Ənvərlinin anası Dilruba xanım və şəhid həkim Azər Şəmilovun oğlu, İqtisadiyyat Universitetinin tələbəsi Fədayət Şəmilov da öz ürək sözlərini tədbir iştirakçıları ilə bölüşüblər. Bildiriblər ki, bu gün ən böyük təsəllimiz torpaqlarımızın işğaldan azad olunmasıdır. O torpaqlarda dalğalanan bayrağımız, tarixi Zəfərimiz bu günləri görməyən oğullarımızın ruhunu şad edir.

**Arif MƏMMƏDLİ**



# Türkiyə səfiri ATU-nun rektoru ilə görüşüb



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı arasında görüş keçirilib.**

Rektor, professor Gəray Gəraybəyli cənab səfirə iki ölkə arasında olan qardaşlıq münasibətlərindən bəhs edərək, 44 günlük Vətən Müharibəsi dövründə Türkiyənin mövqeyinin ölkəmizdə yüksək qiymətləndirildiyini bildirib. Rektor, həmçinin son illərdə ATU ilə Türkiyənin müxtəlif ali məktəbləri arasında imzalanmış memorandumlar, əməkdaşlıq sazişləri, ikili diplom layihələri və digər ortaq fəaliyyətlərdən bəhs edib.

Azərbaycanda ən çox Türkiyə vətəndaşlarının təhsil aldığı universitetin ATU olduğunu vurğulayan professor Gəray Gəraybəyli ikili diplomların tətbiqi ilə bağlı atılan addımlardan da danışıb.

Səfir Cahit Bağçı ATU ilə Türkiyə universitetləri arasında qurulmuş əməkdaşlıqlardan məmnun qaldığını və bu fəaliyyətlərin gələcəkdə də davam etdirilməsini arzu etdiyini bildirib. O, iki ölkənin ali məktəbləri arasında elm və təhsil sahəsində həyata keçirilən layihələrin, tələbə-müəllim mübadiləsinin vacibliyini qeyd edərək, gələcəkdə bu sahədə əməkdaşlıqların dərinləşdirilməsində səfirliyin dəstək olacağını bildirib.

Görüş zamanı ATU və Türkiyənin universitetləri arasında münasibətlərin intensivləşməsi, müştərək elmi tədqiqatların aparılması və s. sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşdə Türkiyə səfirliyinin təhsil müşaviri Yurdagül Aydoğan, birinci katib Öncü Güneş, eləcə də ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Orxan İsayev iştirak edirdilər.

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Almaniya Heidelberg Universitetinin professoru Michael Keese və universitetin Mannhaym Tibb fakültəsinin əməkdaşı, ümumi cərrah dr. Vüqar Yaqublunu qəbul edib.**



# Almaniyalı professora ATU-nun "Qonaq professor"u sertifikatı təqdim edilib

Görüşdə iki ali təhsil müəssisəsi arasında perspektiv əməkdaşlıq məsələləri müzakirə olunub, eləcə də tibb təhsili sahəsində müasir çağırışlara dair fikir mübadiləsi aparılıb. Qonaqlara ATU-nun fəaliyyəti barədə geniş məlumat verilib.

Daha sonra rektor, professor Gəray Gəraybəyli ATU-nun "Qonaq professor"u sertifikatını M.Keeseyə təqdim edib. Rektor uğurlu əməkdaşlıq üçün professora təşəkkürünü bildirib.

Qeyd edək ki, ATU-nun Böyük Elmi Şurasının qərarına əsasən, 2018-ci ildən etibarən universitetdə "Qonaq professor" vəzifəsi təsis edilib. Hazırda 7 fərqli universitetin nümayəndələri ATU-nun "qonaq professor"larıdır. Bu titula layiq görülən mütəxəssislər müəyyən müddət ərzində universitetin müxtəlif fakültələrində dərs demək üçün dəvət olunurlar.

Onu da bildirək ki, dr. Vüqar Yaqublu ATU-da olarkən universitetin Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün "Kliniki mühakimə bacarıqları və diaqnostik səhvlər" mövzusunda çıxış edib. O düzgün diaqnoz qoyulmasının uğurlu müalicənin əsaslarından biri olduğunu deyib: "Təəssüf ki, dəqiq diaqnoz qoymaq heç də həmişə mümkün olmur. Səhv diaqnozların böyük əksəriyyəti diaqnostika zamanı koqnitiv xətalar səbəbindən baş verir. Bu proses "Kliniki mühakimə" adlandırılır, diaqnostika və müalicə zamanı ortaya çıxan bütün düşünmə və qərar vermə mərhələlərini əhatə edir. "Klinik mühakimə" praktikası tələbələrin daha məsuliyyətli və yetkin həkimlər olmasına kömək edir".

**Noyabrın 14-də Böyük Elmi Şuranın növbəti iclası keçirilib. İclası açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırıb. Sonra "Tibb və sağlamlıq elmləri təhsili kafedrasında tədris və təhsilin vəziyyəti və qarşıda duran vəzifələri" mövzusunda kafedranın müdiri, dosent Samir Cavadlının hesabat məruzəsi dinlənilib.**

# ATU-nun yeni yaradılan kafedrası hesabat verdi

## Rektor, professor Gəray Gəraybəyli: "Bu gün kimsə düşünürsə ki 30-40 il əvvəlki kimi fəaliyyət göstərə bilərik, yanılır"



Çıxışını slayd vasitəsilə çatdıran məruzəçi bildirib ki, Tibb və sağlamlıq elmləri təhsili kafedrası rəsmi olaraq 7 sentyabr 2022-ci ildə fəaliyyətə başlayıb. Hazırda kafedrada 10 nəfər professor-müəllim heyəti və 3 laborant fəaliyyət göstərir: "Dünyada tibb təhsili kafedralarının fəaliyyətindəki nailiyyətləri nəzərə alaraq, həmçinin universitetdə keçirilən akkreditasiya ilə əlaqədar olaraq ATU-da da belə kafedranın qurulmasına qərar verilib. Bu məqsədlə 2021-ci ildə dekabr ayından etibarən ÜST-ün dəstəyi və qardaş Türkiyə universitetlərinin tibb təhsili kafedralarının professor-müəllimləri ilə birgə ATU-da əməkdaşların tibb təhsili peşəkarlığının artırılması və gələcəkdə təlimçi vəzifəsini öz öhdəsinə götürə bilmələri üçün "Training of trainers", "Dərman tətbiqləri" və "Təməl yaşam dəstəyi" təlimlərinə başlanılıb.



Həmin təlimlərdə universitetimizin müxtəlif kafedralarından 127 əməkdaş iştirak etmiş və sonda onların içərisindən uyğun olan əməkdaşlar seçilərək bu kafedraya işə qəbul olunmuşdur. Onlar 2021-22-ci illər ərzində, eləcə də sonralar ATU-da (dekan və dekan müavinləri, kafedraların tədris hissə müdirləri və müxtəlif kafedraların professor-müəllim heyəti üçün təlimlər) və digər tibb təhsili verən müəssisələrdə ÜST-ün təşkil etdiyi təlimlərdə əsas təlimçi, ya da köməkçi təlimçi kimi iştirak edərək peşəkarlıqlarını artırıblar".

Sözünə davam edən S.Cavadlı kafedranın hazırkı durumu, maddi-texniki bazası, tədris yükü, eləcə də üzərlərinə düşən vəzifələr barədə də məlumat verib: "Kafedranın fəaliyyəti 3 istiqamətdə aparılır. Universitetin professor-müəllim heyəti üçün "Pedaqoji peşəkarlığın inkişafı" və ekspert müəllimlər üçün "Çoxseçimli sualların hazırlanması, tətbiqi və analizi" təlimlərinin keçirilməsi, tələbələrə maketlər üzərində kliniki bacarıqların tədrisi və qiymətləndirilməsi, həmçinin tibb təhsilində baş verən yenilikləri, innovasiyaları aşkar etmək və bunları həmkarlarımızla paylaşmaq üçün davamlı araşdırmalar aparmaq.

Bütün dünyada tibb təhsili kafedralarında olduğu kimi, məqsədimiz əsasən məzunların diplomaqədər və diplomdansonrakı daimi tibb təhsilinin effektiv şəkildə təşkilinə kömək etməkdir. Bu məqsədlə kafedramızın əsas funksiya və vəzifələri tibb təhsili sahəsində ətraflı informasiya toplamaq, bu sahə üzrə mütəxəssislər hazırlamaq, tibb fakültəsinin rəhbərliyinə tibb təhsili ilə əlaqəli təkliflər vermək, eləcə də digər fakültələrin tədris proqramının müasir dizaynına kömək etməkdir".

Kafedranın fəaliyyətindən bəhs edən məruzəçi az müddət ərzində görülən işləri diqqətə çatdırıb: "Qeyd edim ki, "Pedaqoji peşəkarlığın inkişafı" kursu 6 qrupda təşkil edilib və kursda ümumilikdə 82 müəllim iştirak edib. Hazırda da bu təlimlər davam edir. Ötən tədris ilində keçirilən Elmi Şuranın qərarı ilə universitetin professor-müəllim heyətinin 5 illik seçkiləri üçün bu təlimlərdə iştirakı məcburi hesab olunub və 2023-cü il 24 yanvardan 10 fevraladək "Çoxseçimli testlərin hazırlanması, tətbiqi və analizi" kursu keçirilib. Həmin təlimə 6 qrup olmaqla, ümumilikdə 100 ekspert qatılıb. 2022-ci ilin payız semestrinin sonunda Müalicə-profilaktika fakültəsinin II kursunda təhsil alan 738 tələbə, 2023-cü ilin yaz semestrinin sonunda isə Hərbi tibb fakültəsinin I kursunda təhsil alan 114 tələbə üçün OSKİ imtahanları keçirilib. Bundan başqa, 2023/2024-cü ilin payız semestri ərzində MPF fakültəsinin 837 II kurs tələbəsi üçün OSKİ-nin təşkili nəzərdə tutulur.

Bütün bunlarla yanaşı, qarşımızda duran əsas vəzifələrdən biri də tələbələrimizin tibb sahəsində akademik müstəqillik səviyyəsinin və sərbəst öyrənmə bacarığının müəyyən edilməsidir. Eləcə də ölkəmizdə tibb və sağlamlıq elmlərinin tədris olunduğu təhsil müəssisələrində öyrənmə mühitinin yaxşılaşdırılması məqsədilə qiymətləndirmələrin aparılmasından ibarətdir".

Məruzə ətrafında çıxış edən ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev, Tədris departamentinin müdiri, dosent Kamandar Yaqubov və II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli yeni yaradılmış kafedranın cəmiyyətin sağlamlığını qorumaq və yaxşılaşdırmaq üçün tibb tələbələrinin lazımi müasir bilik, bacarıq, vərdiş və davranışları əldə etməsinə imkan verəcəyini qeyd ediblər. Onlar vurğulayıblar ki, səhiyyənin ən aparıcı sahəsi kimi, əməkdaşların burada həm də tibb təhsilindəki müasir inkişaf kontekstində tədqiqat fəaliyyətlərini təqdim etmələrinə, yeni təhsil strategiyalarını həyata keçirmələrinə, eləcə də qiymətləndirmə üsullarının tətbiqi layihələrini hazırlamalarına və milli səviyyədə tanınmalarına da şərait yaranacaq. Az müddət ərzində görülən işləri qənaətbəxş hesab edən natiqlər adıçəkilən kafedranın yaxın gələcəkdə daha da təkmilləşdirilməsi üçün bir sıra təklif və rəylərini bildiriblər.

Müzakirələri yekunlaşdıran professor Gəray Gəraybəyli diqqəti tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına yönəldib və hər bir yeniliyin heç də hamı tərəfindən birmənalı qəbul edilməməsindən təəssüfləndiyini bildirib: "Bəzən hansısa yeniliyə imza atılanda "həmişə belə idi, qoy yenə də belə qalsın" prizması ilə yanaşanlar tapılır. Bildiyiniz kimi, ötən il universitetimizdə institusional akkreditasiya olub. Bu gün kimsə düşünürsə ki 30-40 il bundan əvvəlki kimi fəaliyyət göstərə bilərik, yanılır. Çünki bu akkreditasiya əvvəllər heç vaxt bizim universitetdə olmayıb. Bilməliyik ki, bu, yeni tələblərdən doğan istiqamətlərin nəticəsidir. İndi hər bir sahədə daha çox keyfiyyət barəsində danışılır. Bu gün ölkədə ən azı 3 tibb fakültəsi var. Gələcəkdə bu fakültələrin sayının artması gözlənilir. Hesab edirəm ki, bu müsbət tendensiyadır. Ən azı, onlar arasında rəqabət yaranacaq. Əlbəttə ki, bu kafedranın yaranması da yuxarıda qeyd etdiyim kimi, günün tələblərinə uyğundur. Beynəlxalq akkreditasiyaya hazırlıq mərhələsində belə bir kafedranın ATU-da fəaliyyətə başlaması olduqca təqdirəlayiq haldır. Biz ilk öncə qardaş Türkiyənin qabaqcıl təcrübəsini öyrəndik və bu təcrübəni nəzərə alaraq belə bir kafedranın yaranması qərarına gəldik. Aydın məsələdir ki, kafedra istər texniki təchizat, istər proqram və istərsə də cədvəl baxımından hərtərəfli təmin olunmalıdır. Əlbəttə, bəzən proqramlarda təkrarçılığa da rast gəlinir. Ancaq belə halların qarşısı alınmalıdır. Yoxsa tərəqqiyə, inkişafa heç zaman nail olunmaz. Universitetdə Ailə təbabəti və həmçinin neçə terapiya kafedrası olduğu halda, tələbələr hansısa özəl kurslara gedir. Bu barədə eşidəndə çox təəccübləndim. Hesab edirəm ki, bu proqramlar təkmilləşdirilməlidir. Öyrənmək utandırıcı bir şey deyil. Artıq neçə ildir ki, biz ingilis dili kurslarının hazırlığına başlamışıq. Bu da əməkdaşların dil biliklərinin təkmilləşməsində mühüm rol oynayır. Bu kurslarda iştirak edib müsbət cavab verənlərə üstünlüklər nəzərdə tutulub. Lakin iştirak etməyib bal toplamayanlar barəsində tədbirlər görüləcək. Çünki bizim qarşımızda duran əsas məsələ beynəlxalq proqramlarda müəllim-tələbələrimizin aktiv iştirak etməsi və dünyanın qabaqcıl elmi qurumları ilə daha yaxın əlaqələr yaratmaqdır.

Mən də hesab edirəm ki, yeni yaranan kafedranın gələcəkdə tibb təhsilinin keyfiyyətinin yaxşılaşdırılmasında müstəsna rolu olacaq. Ancaq kafedranın tərkibində olan heyətin özü də təkmilləşməlidir. Çünki onlar bünövrədən tibb təhsili ilə məşğul olmayıblar".

Müxtəlif məsələlərdən də söhbət açan ATU-nun rektoru bildirib ki, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının məsləhətçi- professoru, t.e.d. Ruxsara Əliyeva həmin kafedraya yenidən məsləhətçi-professor vəzifəsinə seçilməsi barədə müraciət edib. Bu müraciəti təsdiqləyən Şura, daha sonra "Səhiyyə menecmenti" ixtisası üzrə tədris məşğələlərinin aparılması üçün cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsinə və bəzi kafedralarda cari qiymətləndirmə imtahanlarının ləğv edilməsi, semestrin sonunda 100 ballıq (50 sual, 2 bal) imtahan təşkil edilməklə qiymətləndirmənin aparılmasına da münasibət bildirib.

İclasda bir sıra məsələlərə də münasibət bildirən Şura üzvləri I Uşaq xəstəlikləri kafedrasının əyani doktorantı Sevinc Nəbiyeva-Əliyevanın təhsilini qiyabi davam etdirməsinə, eləcə də III Cərrahi xəstəliklər kafedrasının dosenti, t.ü.f.d. Sadiq Həmzəyevin tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işində elmi məsləhətçinin dəyişdirilməsinə razılıqlarını bildiriblər.

Bundan başqa, elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçini, həmçinin dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

# Bakıda "Azərbaycan-Türkiyə pediatriya günləri" elmi praktik konfransı keçirilib

**Bu günlərdə Səhiyyə Nazirliyi, TƏBİB, Türkiyə "Uşaq Allergiyası və Astma Akademiyası" dərnəyinin təşkilati dəstəyi ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə və Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunmuş "Tək millət - iki dövlət. Azərbaycan-Türkiyə pediatriya günləri" elmi praktik konfransı keçirilib.**

500-ə yaxın həkimin qatıldığı konfransın elmi proqramında pediatriyanın müasir problemlərinin müzakirəsinə həsr olunmuş 7 panel iclasında yerli mütəxəssislərlə yanaşı Türkiyə, Almaniya, Orta Asiya türk dövlətlərini təmsil edən məşhur elm adamları tədbir iştirakçıları ilə öz təcrübələrini bölüşüblər.

ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimovanın sədrliyi ilə "Badamdar otel"də baş tutan konfransın rəsmi açılış mərasimində Səhiyyə Nazirliyinin Ana və uşaq sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova, TƏBİB-in Tibbi təhsil və innovasiyalar departamentinin müdiri Teymur Mirzəbəyli, "Uşaq Allergiyası və Astma Akademiyası" dərnəyinin başkanı, professor Koray Harmancı çıxış ediblər.

Sonra konfransın elmi hissəsi "Uşaqlarda hər xışıltı bronxial astmadırmı? Pediatrlar nə etməlidirlər", "Bütün aspektləri ilə inək südü proteini allergiyası (İSPA)", "Allergenspesifik immunoterapiya. Anafilaksiya" və digər mövzularda müzakirəli panellərlə davam edib.



# Varşava Tibb Universitetinin nümayəndə heyəti ATU-da olub



**Varşava Tibb Universitetinin (VTU) nümayəndə heyəti Azərbaycan Tibb Universitetində olub. Universitetin professoru Agnieszka Chudnoch-Jedrzejevska ali məktəb haqqında geniş məlumat verib.**

O, VTU-nun Polşada tibbi təhsili üzrə şöhrət qazanmış bir universitet olduğunu vurğulayıb: “Beynəlxalq səviyyədə tanınan bu təhsil mərkəzi həm də Polşanın öz gəncləri üçün arzuolunan ən prestijli yerdir. Hətta Polşanın ən yaxşı iki universitetindən biridir - demək düzgün olardı. Elmi tədqiqatların yüksək səviyyəsi və tədris metodlarının müxtəlifliyi, cəlbediciliyi onu digər tədris məkanlarından tam fərqləndirir. Burada polyak və ingilis dillərində bakalavr, magistr dərəcələrində təhsil ala bilərsiniz. Bu univesitet çox qədimliyi və tibb fakültəsində yüksək nəticələri ilə fərqlənir”.

Görüş zamanı ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov qonağa son illər universitetimizdə aparılan islahatlar, yenilənmiş tədris proqramı, universitetdə tələbələrin keyfiyyətli təhsil alması və asudə vaxtını keçirməsi üçün yaradılan şərait haqqında ətraflı məlumat verib.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, VTU-nun İnsan resursları üzrə prorektoru, professor Pavel Vlodarski, Beynəlxalq əlaqələr, inkişaf və təbliğat üzrə prorektor Lidiya Przepera-Dzevulska iştirak ediblər.

# YAP fəalları ilə görüş keçirilib



**Azərbaycan Tibb Universitetində Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının fəalları ilə görüş keçirilib. Görüşdə çıxış edən ATU-nun Tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirib ki, ölkəmizdə hakim partiyanın fəaliyyəti danılmazdır.**

Xalqımız bu partiya ətrafında birləşib və bütün məsələlərdə ölkə rəhbərini dəstəkləyir: “Ona görə ki, cənab Ali Baş Komandanın fəaliyyəti, xüsusilə son addımları olduqca təqdirəlayiqdir. Azərbaycan xalqı son 20 ildə böyük nailiyyətlər əldə edib. Biz böyük bir dövr ərzində imperiya daxilində olmuşuq, həmişə ərazilərimizi itirmişik. Ancaq Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında xalqımız son 200 ildə görünməmiş qələbə qazanıb”.

YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov dünyada gedən prosesləri xatırladaraq, ölkəmizdəki sabitliyi vurğulayıb: “Cənab prezidentimizin də bildirdiyi kimi, müharibə bitsə də, informasiya müharibəsi davam edir. Biz Vətən müharibəsi günlərində Prezidentin müsahibələr verməsini, bütün dünyaya vəziyyəti olduğu kimi çatdırmasını gördük. Bu baxımdan, həm Azərbaycan vətəndaşı, həm də Yeni Azərbaycan Partiyasının üzvləri kimi bu gün də hər birimizin üzərində öhdəliklər var”.

Görüşün sonunda partiyaya yeni qəbul olunmuş üzvlərə YAP-ın vəsiqəsi təqdim edilib.

# ATU-nun baş mühasibi beynəlxalq mükafata layiq görülüb

**Azərbaycan Tibb Universiteti rektorunun müşaviri, Mərkəzləşdirilmiş mühasibatlıq şöbəsinin müdiri-baş mühasib İlqar Mehrabov maliyyə sahəsində ali mükafatlardan sayılan beynəlxalq “LUKA” mükafatına (LUCA Awards) layiq görülüb.**



Böyük Britaniyada keçirilən təqdimat mərasimində ATU-nun şöbə müdiri “İlin baş mühasibi” nominasiyası üzrə qalib elan edilib. Mükafat Londonda baş tutan "Mühasiblərin zirvə toplantısı-2023" tədbiri çərçivəsində Böyük Britaniyanın nüfuzlu və peşəkar mühasib təşkilatı - Sertifikatlaşmış Maliyyə Menecerləri İnstitutunun (İCFM) direktoru Qarri Karter tərəfindən təqdim edilib. Tədbirdə Azərbaycanın nüfuzlu təşkilatlarının maliyyə sahəsində çalışan mütəxəssisləri iştirak ediblər və müxtəlif nominasiyalar üzrə mükafatlarla təltif olunublar.

Qeyd edək ki, “LUKA” mükafatının nominasiyaları üzrə namizədlər ilkin mərhələdə hər ölkədə İCFM nümayəndəliyi tərəfindən nəzərdən keçirilir və təsdiqlənir. Sonrakı mərhələdə namizədlərin siyahısı seçim üçün qurumun Beynəlxalq Şurasına təqdim olunur. Hər il müxtəlif nominasiyalar üzrə qaliblərə İCFM-in rəhbərliyi tərəfindən mükafat təqdim edilir.

# Akkreditasiya meyarları üzrə təlim iştirakçılarına sertifikatlar təqdim edilib

**Azərbaycan Tibb Universitetinin 30-dan çox əməkdaşına “İnstitusional akkreditasiya meyarları üzrə” mövzusundakı təlimdə iştirakla bağlı sertifikatlar təqdim olunub.**



Təqdimat mərasimində çıxış edən ATU-nun Tədris işləri üzər prorektoru, professor Sabir Əliyev bu təlimlərin akkreditasiya meyarlarının metodologiyası ilə tanışlıq baxımından böyük əhəmiyyət daşıdığını bildirib. Məhz bu təlimlərin universitet əməkdaşlarının ali təhsil pilləsi üzrə institusional akkreditasiya meyarları vasitəsi ilə özünütəhlil qiymətləndirməsini yüksək səviyyədə həyata keçirdiyini qeyd edib.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin əməkdaşları tərəfindən yüksək səviyyəli təlimin təşkil olunduğunu nəzərə çatdıran professor S.Əliyev Elm və Təhsil Nazirliyinin nəzdində olan bu agentliyin fəaliyyətinin bütün ali məktəblər üçün əhəmiyyət daşıdığını vurğulayıb.

Agentliyinin İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Kamran Rəsulov qurum haqqında toplantı iştirakçılarına məlumat verib. Agentliyin Azərbaycanda və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsini apardığını bildirib. İndiyədək Agentlik tərəfindən 13 ali təhsil müəssisəsinin institusional akkreditasiyadan keçirildiyini, son 3 il ərzində ali təhsil müəssisələrinin 1000-dən çox nümayəndəsinin təlimlərdə iştirak etdiyini diqqətə çatdırıb.

ATU-nun Təlim və metodologiya şöbəsinin müdiri Simnar Məmmədov təlim mövzusunun universitet əməkdaşları üçün çox aktual olduğunu, akkreditasiyanın müxtəlif mərhələlərindən uğurla keçmək üçün hər kəsə yardımçı olduğunu bildirib.

Qeyd edək ki, bir müddət əvvəl ATU-nun İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin təşkilatçılığı ilə keçirilən təlimdə əməkdaşlarımız akkreditasiya meyarlarının metodologiyası ilə tanış olub.



# Əməkdaşımız Anadolu Universitetində dərs keçib

**Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, ə.ü.f.d. Əfsanə Məmmədova “Erasmus+” mübadilə proqramı çərçivəsində Türkiyənin Anadolu Universitetinin Əczaçılıq fakültəsində pedaqoji fəaliyyət göstərib.**

30 oktyabr - 3noyabr aralığında reallaşan mübadilə proqramı zamanı Ə.Məmmədova Əczaçılıq fakültəsinin dekanı və Toksikoloji kimya kafedrasının rəhbərliyi ilə görüşüb.

Əməkdaşımız Əczaçılıq texnologiyası kafedrasında mühazirələr oxuyub, seminar və laborator məşğələlərdə iştirak edib. Eləcə də səfər imtahan həftəsinə təsadüf etdiyi üçün I və II kurslarda keçirilən yazılı və test imtahanını izləyib.

Səfər zamanı Əfsanə Məmmədova Anadolu Universitetinin Əczaçılıq texnologiyası kafedrasının müdiri, professor Ebru Başaran, Əczaçılıq kosmetologiyası bölümünün rəhbəri, dosent Evrim Akyil, Əczaçılıq biotexnologiyası bölümünün rəhbəri, professor Gülay Büyükköroğlu, Klinik əczaçılıq kafedrasının müdiri, professor Yusuf Öztürk, Farmakoqnoziya kafedrasının müdiri, professor Mine Kürkçüoğlu və digər əməkdaşlarla görüşlər keçirərək, dərs proqramları, tədris sistemi, kafedraların elmi-araşdırma istiqamətləri, magistratura qaydalarına dair müzakirələr aparıb.

Əməkdaşımız Əczaçılıq fakültəsinin müxtəlif laboratoriyalarına (əczaçılıq texnologiyası, toksikoloji kimya, farmakologiya) da baş çəkərək, ordakı təchizat və avadanlıqlarla yaxından tanış olub. Professor-müəllim heyəti ilə görüşlər zamanı elmi işlər, onların birgə yerinə yetirilməsi, magistratura təhsil səviyyəsində mübadilə proqramları və birgə nəşrlərlə bağlı söhbətlər aparılıb.

Səfər zamanı Ə.Məmmədova orada təhsil alan və məzun olan həm bakalavr, həm də magistrant azərbaycanlı tələbələrlə də görüşüb.

# "Xroniki ürək çatışmazlığının müasir müalicəsi" mövzusu müzakirəyə çıxarılıb





**ATU-nun Rezidentura və magistratura şöbəsi Tədris Terapevtik Klinika ilə birgə rezidentlər üçün növbəti seminar keçirib.**

Tədbir iştirakçılarını salamlayan Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov bildirib ki, klinikanın Kardiologiya şöbəsinin müdiri, Klinik farmakologiya kafedrasının dosenti Sona Qəhrəmanova "Xroniki ürək çatışmazlığının müasir müalicəsi" mövzusunda çıxış edəcək.

S.Qəhrəmanova məruzəsində xroniki ürək çatışmazlığının müalicəsində müasir dərman qrupları ARNİ və SGLT2-nin tətbiqi xüsusiyyətləri, əsas və əlavə təsirləri, eləcə də müalicə prinsipləri və üstünlüklərindən bəhs edib.

O, bildirib ki, xroniki ürək çatışmazlığı bütün dünyada olduğu kimi ölkəmizdə də geniş yayılmış ürək-damar patologiyasıdır: “Bu xəstəliyin müalicəsində müasir dərmanların istifadəsi xəstənin ömrünü uzadır, həyat keyfiyyətini yaxşılaşdırır və hospitalizasiya saylarını azaldır. Son illər bu dərmanlar sırasında 2 qrup - ARNİ (angiotenzin reseptor neprilizin inhibitor) və SGLT2 (sodium-glucose co transporter-2 inhibitor) inhibitorları xroniki ürək çatışmazlığının müalicəsində öz effektivliyini sübut edib. Bu qrup dərman preparatlarının effektivliyi Avropa və Amerikada aparılan genişmiqyaslı tədqiqatlar nəticəsində ortaya çıxıb və beynəlxalq tövsiyələrdə öz əksini tapıb. Bu dərmanları təyin edərkən xəstələrin böyrək funksiyasına, arterial təzyiqinin səviyyəsinə, qanda kalium, kreatinin miqdarına, yanaşı olaraq şəkərli diabetin mövcudluğuna xüsusi diqqət yetirmək lazımdır. Müalicə fonunda dərmanlar eyni dərəcədə effektivlilik və təhlükəsizlik nümayiş etdirirlər: ürək-damar hadisələrinin, qəfləti ölüm riskinin, ürək çatışmazlığı səbəbindən hospitalizasiya sayının azalmasına gətirib çıxarır. Əgər ARNİ preparatını təyin edərkən ən kiçik dozadan başlayaraq effektiv terapevtik dozaya çatdırılana qədər titrləmək lazımdırsa, SGLT2 inhibitorlarını müalicənin əvvəlindən eyni dozada təyin etmək məsləhət görülür”.

Tədris Terapevtik Klinikanın direktoru Fərid Eyvazov və baş həkim Fəridə Hacıyevanın da iştirak etdiyi seminarda sualları cavablandıran S.Qəhrəmanova məruzəsinin maraqla qarşılandığından razılığını bildirib və bu cür tədbirlərin baş tutmasında universitet və klinika rəhbərliklərinin verdikləri dəstəyə görə minnətdarlıq edib.

# Orta Asiya Tibb Universitetinin rəhbər şəxsləri ilə görüş keçirilib

**Azərbaycan Tibb Universiteti və Orta Asiya Tibb Universitetinin (Central Asia Medical University - CAMU) rəhbər şəxsləri arasında görüş keçirilib. Görüşdə iki ali təhsil müəssisəsi arasında mövcud memorandumun müddəaları ilə bağlı müzakirələr aparılıb.**



CAMU nümayəndə heyətinin başçısı, Tədris işləri və beynəlxalq məsələlər üzrə prorektor M.Batirov təmsil etdiyi ali məktəbin Özbəkistanda yüksək lisenziyaya malik yeganə qeyri-dövlət universiteti olduğunu bildirib. Hazırda CAMU-da 3 ixtisas - müalicə işi, pediatriya və stomatologiya üzrə proqramların tədris olunduğunu qeyd edib.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov qonaqlara universitetin fəaliyyəti, tədris proqramları, yeni ixtisaslar, son illərdə tətbiq edilən yeniliklər barədə məlumat verib. O, iki ali təhsil müəssisəsi arasında əlaqələrin möhkəmləndirilməsi, əməkdaşlığın gücləndirilməsində maraqlı olduqlarını bildirib.

ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov Azərbaycan və Özbəkistan arasında yüksək səviyyəli münasibətlərin təhsil və səhiyyə sahəsinə də aid olduğunu bildirərək, bu günkü görüşün həmin əlaqələrin bariz nümunəsi olduğunu bildirib.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, İctimai səhiyyə fakültəsinin dekanı Qalina Qəniyeva, Orta Asiya Tibb Universitetinin Elmi işlər və innovasiyalar üzrə prorektoru Ş.Normatova, Tibb fakültəsinin dekanı X.Mamarizayev iştirak ediblər.

**Səhiyyə Nazirliyinin baş stomatoloqu, Azərbaycan Tibb Universitetinin Elmi katibi, əməkdar həkim, professor Nazim Pənahov Belarusda keçirilən tibb sərgisində iştirak edib. "Belarus stomatologiyası-2023" ("Belarusdent") sərgisində diş xəstəliklərinin müalicəsində istifadə olunan yeni texnologiyalar və materiallar, profilaktikasında əldə olunan nailiyyətlər, bu sahəyə dair tibbi avadanlıqlar, diaqnostika cihazları və müalicə preparatları təqdim olunub.**



# ATU-nun Elmi katibi Belarusda keçirilən sərgidə iştirak edib

Sərgi çərçivəsində, həmçinin IX Beynəlxalq Stomatoloji Konqres, müxtəlif ölkələrdən olan mütəxəssislərin seminarları və master-klasları baş tutub. Konqresdə stomatologiyanın aktual problemləri, ortodontiya, ağız-çənə cərrahiyyəsi, implantologiya və digər mövzulara həsr edilmiş plenar sessiyalar keçirilib.

Sərgi çərçivəsində yerli mediaya müsahibə verən professor N.Pənahov bu cür tədbirlərin təcrübə və bilik mübadiləsi, yeni işgüzar əlaqələrin qurulması baxımından çox əhəmiyyətli olduğunu vurğulayıb.

Səfər çərçivəsində ATU-nun Elmi katibi Belarus Dövlət Tibb Universitetində də olub. Universitetin rektoru, tibb elmləri doktoru, professor Sergey Rubnikoviç N.Pənahovu rəhbərlik etdiyi ali məktəb, eləcə də universitetin tədris treninq mərkəzi ilə tanış edib.

# İxtisasyönlü xarici dil bilikləri günün tələbidir

## Xarici dillər kafedrası bu istiqamətdə mühüm işlər görür

**Müasir dünyanın tələblərinə əsasən, xarici dil, xüsusilə informasiya mənbələrinə çıxış nöqtəsi olan ingilis dili biliklərinə hər yerdə ehtiyac var. Ali tibb təhsilinin yeni keyfiyyət səviyyəsinə nail olunmasında ATU-nun Xarici dillər kafedrası mühüm rola malikdir. Bu sahədəki yeniliklər barədə kafedranın müdiri, professor Zemfira Məmmədova "Təbib"ə ətraflı məlumat verib:**



"Sosial və intellektual sahədə, əmək bazarında rəqabətə davamlı yeni nəsil gənclərin bir deyil, bir neçə xarici dilə yiyələnməsinin vacibliyi artıq bir gerçəklikdir. Digər tərəfdən, cəmiyyətin üzvü olan gənc mütəxəssisin peşəkar kadr kimi formalaşması üçün onun xarici dilə yalnız gündəlik mövzularla bağlı ünsiyyət bacarığı səviyyəsində yiyələnməsi yetərli deyil. Zamanın tələbi onun xarici dil bilgisinin həm də ixtisasyönlü vərdişlər səviyyəsinə yüksəldilməsidir. Çünki istər tələbə, istərsə də hər hansı peşə sahibi olan bir mütəxəssis seçdiyi ixtisasla bağlı müasir elmi məlumatları əldə etmək üçün informasiya bazasının böyük bir qisminin xarici dildə olduğu onlayn mənbələrdən istifadə etmək, beynəlxalq konfranslarda, layihələrdə məruzə və ya təqdimatla çıxış etmək, xaricdəki kollegaları ilə nəzəri və təcrübi biliklərini bölüşmək üçün ünsiyyətə girmək zərurəti ilə üzləşir".




Kafedra müdiri deyir ki, ixtisasla bağlı xarici dil bilgisi gənc mütəxəssisə həm də nüfuzlu və yüksək təminatlı iş tapmaq imkanı yaradır. Xarici dillər kafedrasının tədris fəaliyyətində də məhz bu reallıq əsas tutulur, tələbənin hansı bilik və bacarıqlara yiyələnmək ehtiyacının nəzərə alınması təlim kursunun məzmununun müəyyən olunmasında üstünlük təşkil edir: "Bu yanaşma tədris prosesinin digər komponentlərinin də keyfiyyətcə yenilənməsini tələb edir. Kafedrada tədris planları, fənn proqramları və dərsliklərin müasirləşdirilməsi, innovativ təlim üsullarının məqsədyönlü tətbiqi, təlimin effektivliyini yüksəldən qiymətləndirmə üsullarından istifadə və təlim mühitinin təşkili kimi məsələlərin həllinə xüsusi diqqət yetirilir. İstər bakalavr, subbakalavr, istərsə də magistr təhsil pilləsində xarici dil tədrisinin məzmun və struktur baxımından yenilənmiş proqramlar əsasında təşkili mühüm bir irəliləyiş sayıla bilər. Onu da vurğulayım ki, ingilis dilində tibb təhsili alacaq hazırlıq kursu əcnəbi tələbələrlə iş son dövrdə kafedranın tədris fəaliyyətində önəmli yer tutur. Bu işin hansı səviyyədə təşkil olunması xarici tələbələrdə ATU, eləcə də ölkəmiz, onun insanları, elm və mədəniyyəti haqqında təsəvvürün formalaşmasında mühüm rola malikdir. Bu səbəbdən, digər nüfuzlu universitetlərin təcrübəsi öyrənilir, müasir dərslik və tədris vəsaitlərindən, dil təliminin kommunikativ yanaşma üsulları, xüsusilə interaktiv təlim kimi innovativ metodlardan, audio-video materiallardan istifadə edilir".

Zemfira xanımın sözlərinə görə, tədrisin keyfiyyətinin yüksəldilməsində həlledici faktor müəllimlərin elmi-metodiki hazırlığı və pedaqoji ustalıqlarının günün tələbləri səviyyəsində olmasıdır: "Kafedrada yüksək səviyyəli dil və metodiki hazırlığa malik müəllimlərin təcrübəsi öyrənilir. Onların qarşılıqlı dərs dinləməsi, açıq dərslərin müzakirəsi, mövzuların birgə tədrisi təşkil olunur. İxtisasartırma işinin əhatə dairəsi müəllimlərin ölkədə və xaricdə ayrı-ayrı kurslarda, təlimlərdə iştirakı ilə daha da genişlənir. Birləşmiş Krallığın Glazgo, Esseks universitetləri, həmçinin Avropa və Orta Asiyanın ixtisas təhsili verən bir çox universitetlərinin cəlb olunduğu Tempus FLEPP (Foreign Language Education for Professional Purposes) layihəsində kafedramız ATU-nun təmsilçisi olmaqla, ixtisasyönlü xarici dil təlimi keyfiyyətinin yüksəldilməsi, eləcə də müəllimlərin professional inkişafında bir sıra irəliləyişlərə nail olub".

Kafedra müdiri əlavə edib ki, bu istiqamətdə işin davamı olaraq ötən tədris ilinin mart-may ayları ərzində universitet rəhbərliyinin təşəbbüsü və ABŞ səfirliyinin dəstəyi ilə kafedrada müəllimlərin inkişafı yönümündə iş aparılıb: "ATU-nun professor-müəllim heyətinin öz sahələrinə dair ixtisas biliklərini və ayrı-ayrı fənlərin qabaqcıl tədris təcrübəsini paylaşmaq imkanı yaradan bu platformanın onların birgə işi, uğurlu təlim nəticələri əldə etməsi üçün çox səmərəli olacağına inanırıq. Bu layihə çərçivəsində "Tədris proqramı və sillabus tərtibatı", "Strateji planlaşdırma və proqram qiymətləndirilməsi" mövzularında aparılan təlimlərdə kafedranın əməkdaşları Aybəniz Qadaşova və Günel Rüstəmova köməkçi-tərcüməçi kimi iştirak edib və ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən təşəkkürnamə ilə təltif olunublar".

Onu da qeyd edək ki, bu yaxınlarda Bakıda keçirilmiş "İCME-2023" Tibb Təhsili üzrə Beynəlxalq Konfransın təşkilat komitəsinin 6 üzvü Xarici dillər kafedrasının əməkdaşları olub.

**M.ƏLƏKBƏRLİ**

**Gürcüstanda məşhur gürcü alim, professor Paliko Kintroiyanın xatirəsinə həsr olunmuş III Cənubi Qafqaz Mama-ginekoloq və Perinatoloqlar Konqresi keçirilib.**



# Əməkdaşımız Gürcüstanda beynəlxalq konqresdə çıxış edib

ATU-nun I Mamalıq-ginekologiya kafedrasının assistenti Sevinc İsmayılova "Hamiləlikdə uşaqlıq boynunun displaziyaları" movzusunda çıxış edib.

O, hamiləlikdə uşaqlıq boynunun xərçəngönü xəstəliklərinin diaqnostika və müalicə taktikasının klinisist həkimlər üçün çətinlik yaradan bir durum olduğunu bildirib. Qeyd edib ki, hamilələrin uşaqlıq boynu xəstəliklərinin diaqnostikası, müalicəsi, doğuş taktikasının seçilməsi və hamilələrin monitorinqi haqqında məlumatlar ədəbiyyat və elmi-praktik tövsiyələrdə kifayət qədər işıqlandırılmayıb. Uşaqlıq boynunun xərçəngönü xəstəliklərinin və xərçəngin hamiləlik zamanı aşkarlanma tezliyinin yüksək olması bu qadınların həmin dövrdə aktiv həkim nəzarətində olması ilə əlaqələndirilir. Hamilələrdə uşaqlıq boynu xərçənginin erkən mərhələlərdə aşkarlanması ümumi populyasiya ilə nisbətdə 3 dəfə yüksəkdir.

Sitoloji müayinə zamanı əhəmiyyət kəsb etməyən nəticələr olduqda, kolposkopiya müayinəsi gizli ağır dərəcəli displaziyaları aşkarlamağa kömək edir, əhəmiyyət kəsb edən nəticələr alındıqda isə, gələcək taktikanın seçimində yardımcı olur.

Həkim-ginekoloq son illər hamilələrdə CIN II-III patologiyası aşkarlandıqda, aqressiv müalicə taktikasının konservativ-gözləmə taktikası ilə əvəz olunduğunu diqqətə çatdırıb: "Bir sıra tədqiqatlara əsasən, uşaqlıq boynunun ekssiziyası vaxtından qabaq doğuşların riskini artırır, tədqiqatçıların digər qismi isə ekssiziyanın heç bir mənfi təsirinin olmadığını qeyd edir. Buna baxmayaraq, Tibbi Onkologiyanın Avropa Cəmiyyəti ekssizion biopsiyanı təhlükəsiz müayinə metodu hesab edir. Amerika kolposkopiya və uşaqlıq boynunun patologiyası Cəmiyyəti 2011-ci ildə bir neçə tövsiyə tərtib edib. Həmin tövsiyələrə görə, gənc hamilə qadınlarda CIN II-III diaqnozu təsdiqləndikdə, daim diqqətli müşahidənin aparılması optimal sayılır və ekssiziya yalnız uşaqlıq boynu xərçənginə şübhə olduqda aparılır. Rus müəllifləri isə sitoloji nəticə CIN II-III olduqda, punch-biopsiyasının, bəzi hallarda konizasiyanın aparılmasını tövsiyə edirlər. Buradan aydın olur ki, müasir dövrdə hamilələrdə uşaqlıq boynunun displaziyalarına diaqnostik və müalicəvi yanaşma taktikası dünya ölkələrində əhəmiyyətli dərəcədə fərqlənir".

Şəhid məzunlarımız

# Əsgərlərin sevimlisi

## Tibb xidməti giziri Seymur Şabıyev antiterror əməliyyatı zamanı şəhid olub



**Bu il sentyabrın 19-20-də antiterror əməliyyatı zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhidlik zirvəsinə ucalanlardan biri də Azərbaycan Tibb Universitetinin müdavimi, tibb xidməti giziri Seymur Şabıyevdir.**

**Seymur 16 iyun 1997-ci ildə Cəlilabad rayonunun Mirzəli kəndində anadan olub. 2014-cü ildə rayonun Hacıməmmədli kənd orta məktəbini bitirib. Elə həmin il Azərbaycan Tibb Universitetinin hərbi feldşer ixtisasına qəbul olub. 2016-cı ildə universiteti bitirərək N saylı hərbi hissədə hərbi feldşer kimi xidmətə başlayıb.**

### "Ona başqa ixtisas məsləhət gördüm, amma hərbçi oldu"

**Atası Sabir Şabıyev:**



- Ailədə 3 uşaq idilər - iki qız, bir oğlan. Ağır təbiəti, sakitliyi ilə seçilən Seymur uşaqların ortancılı idi. 7 il idi ki, feldşer kimi xidmət göstərirdi. Özünə xeyli dostlar qazanmışdı.

Universiteti bitirən kimi, Füzuliyə N saylı hərbi hissəyə göndərdilər. Oğlum Aprel döyüşlərində iştirak edib. Sonra Beyləqanda N saylı hərbi hissədə xidmət edirdi. 44 günlük müharibədə də olub və xeyli yaralı əsgərə ilkin tibbi yardım göstərib, onların təxliyəsini təşkil edib. Xidmətləri nəzərə alınaraq, Füzulinin, Şuşanın azad olunmasına görə və "Vətən uğrunda" medalları ilə təltif olunub.

Orta məktəbdə yaxşı oxuyurdu, müəllimləri ondan çox razılıq edirdi. Evin tək oğluydu deyə, istəmirdim hərbçi olsun. Ona başqa ixtisas seçməsini məsləhət gördüm, amma baxdım ki, könlündən hərbçi olmaq keçir. İstəyinə qarşı çıxmadım. Hazırlaşdı, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə qəbul oldu.

Torpaqlarımız işğaldan azad edildikdən sonra, 2020-ci il noyabrın ortalarından xidmətini Şuşada davam etdirdi. Hərbi hissənin feldşeri idi.

Antiterror əməliyyatı zamanı şəhid olandan sonra onun xidmət yoldaşları, bir otaqda qaldığı dostları mənə zəng edib, haqqında ağızdolusu danışırdılar. Deyirdilər ki, Seymurun aramızda olmadığına inana bilmirik. Necə ki, biz inana bilmirik...

### "Bacılarını özünə qardaş bilirdi"

**Anası Mərziyyə Sadatova:**



- Gələn yazda evləndirmək istəyirdik. Doğrudur, sevdiyi qız yox idi. Amma məsləhətlə, oğlumun razılığı ilə istəyirdim ki, onun da ailəsi olsun. Çox mədəni, tərbiyəli, şən, savadlı bir övlad idi. Məktəbdə onu riyaziyyatçı kimi tanıyırdılar. Heç kimlə işi olmaz, hər kəslə səmimi, xoş davranardı. Onunla hər sözümüz, söhbətimiz bir olub. Nə problemi olardısa, mənə deyər, nə iş görmək istəyərdisə, mənimlə məsləhətləşərdi. Mən də məsləhətlərimi verər, sonda özünün seçim etməsini tövsiyə edərdim.

Uşaqlıqdan tapançanı çox sevirdi. Həmişə atasına tapança, oyuncaq silahlar aldırardı. Özü də biriylə kifayətlənməz, 4-5-ni aldırardı. Onun hərbə meyli var idi, hərbçi də oldu. İşindən razılıq edirdi. Hələ müharibədən qabaq torpaqlarımızın işğaldan azad olunacağından danışırdı. Deyirdi ki, torpaqlarımız heç vaxt yağı tapdağında qalmayacaq, vaxt gələcək azad edəcəyik. Qələbə əldə edəcəyimizə böyük inamı var idi. Sülhsevər idi. Heç kəsi incitməzdi. Ondan nə işində, nə də ətrafında narazılıq edən kimsə vardı.

Şəhid olmamışdan bir gün öncə mənimlə telefonla danışdı. Mən diabet xəstəsiyəm. Soruşdu ki, dava-dərmanlarım varmı? Dərmanlarımı Seymur alırdı... Özü Şuşada məscidin arxasındakı evdə qalırdı. Soruşdum, evdəsən, yoxsa işdə? Dedi, işdəyəm. Dedim, özünü gözlə. Dedi, narahat olma. Artıq televiziyada verilən xəbərlərdən oradakı vəziyyət haqqında məlumatım var idi. Dedi, bir azdan yatacağam. Amma harada olduğunu demədi. Səhər saat 10-da ona zəng etdim. Zəng çatmadı... Sən demə, şəhid olubmuş.. Evimizə gətirilənədək mənə heç nə



demədilər.

Balam kənd qəbiristanlığında, babasının yanında dəfn olundu.

Bacıları ilə çox mehriban idi. Qızlar ailəlidir. Onlar bizə gələndə, arada telefonla Seymurla danışırdıq. Bilendə ki bacısı bizə gəlib, deyirdi ki, ana, mən orada yoxam, bacılarıma yaxşı bax. Bacılarını sanki özünə qardaş bilirdi.

### "Xidmət yoldaşları onun haqqında ağızdolusu danışdılar"

**Əmisi Fayil Mirzəyev:**

- Seymur halal və zəhmətkeş uşaq idi. Aprel döyüşlərində və 44 günlük Vətən müharibəsində iştirak edib, xeyli yaralıya tibbi yardım göstərib. Vətənpərvər, öz işini dərindən bilən hərbçi idi. Çox söz danışmazdı. Amma həmişə deyirdi ki, hər şey yaxşı olacaq. Xidmət yoldaşları hüzrə gəlmişdilər, onun haqqında ağızdolusu danışdılar. Bildirdilər ki, Seymur çox qoçaq hərbçi olub. Müharibə vaxtı yaralıları od-alovun içərisindən çıxarıb, həyatlarını xilas edib.

Bir əmi kimi Seymurla fəxr edirəm.

**Qohumu Hakim Sadatov:**

- Seymur çox tərbiyəli, sakit bir uşaq idi. Ali məktəbə daxil olmaq üçün hazırlaşmağa Mirzəli kəndindən Bədirliyə 10 kilometr yolu piyada gedirdi. Hər gün məktəbə gedər, oradan isə hazırlığa yollanardı. Çox istəyərdik ki, onun adı əbədiləşdirilsin. Oxuduğu Mirzəli kənd məktəbinə və ya yaşadığı küçəyə onun adı verilsə, doğmalarına da bir təsəlli olar. .

### "Oğluma silah tutmağı öyrədirdi"

**Bacısı Sahilə Vəliyeva:**

- Seymur məndən iki yaş kiçik idi. Həmişə biz bacıları ilə maraqlanırdı. Biz Bakıda yaşayırıq. Hər dəfə məzuniyyətə gələndə, bizə də baş çəkərdi. Uşaqlarla oynayar, oyuncaqlar alar, onları şəhərə gəzməyə çıxarardı. Uşaqlıqda özü tapança, tüfəng sevdiyindən oğluma da oyuncaq silahlar alırdı. Yarıgerçək, yarızarafat deyirdi ki, gələcəyin əsgəri olacaqsan, indidən silah tutmağı öyrən.

Valideynlərimizə çox bağlı idi. Elə bil onlarla yaşayırdı.

**Bacısı Sahilə Vəliyeva:**

- Qardaşım məndən 3 yaş böyük idi. Seymur ailəsini, bacılarını sevən, hörmətlə yanaşan, işinə, Vətəninə bağlı qardaş idi. Böyük həvəslə Vətənə xidmət edirdi. Gələndə mənə, uşağa hədiyyə alırdı. Onun yoxluğuna inanmaq çox çətindir.

### "Seymur yaddaşımda bir qəhrəman kimi qalacaq"

**Taborun tibb məntəqə rəisi, tibb xidməti kapitanı Əli Kişiyev:**

- Mən 44 günlük Vətən müharibəsinə ehtiyatdan çağırılmışdım. Gizir Seymur Şabıyevi də orada tanıdım. Müharibə başlanandan sonadək birlikdə olduq. İlk dəfə Füzulinin azad olunmasında iştirak etdik. Yaralıları və şəhidləri döyüş meydanından birgə təxliyə edirdik. Doğrudur, həkimlərə döyüş zonasına girməyə icazə vermirdilər. Amma mən Seymurla və əsgərlərimlə bərabər qaynar nöqtələrə gedərək, yüzlərlə yaralıya ilkin tibbi yardım göstərib, həyatlarını xilas etmişik.

Sonra biz Daşaltı və Topxana meşəsi tərəfə istiqamət aldıq. Orada da yaralılara yardım göstərdik. Taborumuz xüsusi təyinatlılarla birgə həmişə öndə olub. Şuşaya daxil olan ilk tibb işçiləri biz olmuşuq.

Şabıyevi həmişə sağ əlim bilmiş, ona güvənmiş, etibar etmişəm. O cəsarətli, ölümdən qorxmayan, qəhrəman bir oğlan idi. Öhdəsinə düşən vəzifəni 44 günlük Vətən müharibəsində şərəflə yerinə yetirdi. Ağır artilleriya atəşləri altında sürünə-sürünə yaralıları xilas edirdik. Çünki ermənilər təcili yardım avtomobilinə, tibb işçilərinə də atəş açırdılar. Bu səbəbdən texnikamızı gizlətmək məcburiyyətində qalırdıq.

Sentyabrdakı antiterror əməliyyatı zamanı da ermənilər öz xislətindən əl çəkməyərək, tibb işçisinə atəş açdılar. Nəticədə S.Şabıyev həyatını itirdi.

Seymur yaddaşımda həmişə bir qəhrəman kimi qalacaq!

### "93 il yaşayacağını deyirdi..."

**Xidmət yoldaşı Elşən Ələsgərov:**

- 2020-ci ilin yanvar-fevral aylarında N saylı hərbi hissədə sanitar-təlimatçı kursunda idim. Seymuru ilk dəfə orada gördüm. O zaman elə də münasibətlərimiz yaranmadı. 2020-ci ilin aprelində hərbi hissələrin birində



xidmətə başladım. Sentyabrın 23-də Seymur bizdə taborun feldşeri vəzifəsinə təyin edildi və orada bir-birimizlə yaxından tanış olduq.

Sentyabrın 27-dən oktyabrın 15-dək Füzuli istiqamətində gedən döyüşlərdə yaralılara birlikdə ilkin tibbi yardım göstərərək, onların təxliyəsi ilə məşğul olduq. Sonra ayrıldıq və bir də noyabrın 11-də Şuşada görüşdük. Qucaqlaşdıq, əldə etdiyimiz qələbə münasibəti ilə bir-birimizi təbrik elədik. O gündən etibarən Şuşada bir yerdə xidmət etməyə başladıq.

Seymur bir feldşer kimi hər zaman xəstələrin qayğısına qalırdı. Əsgərlərin hamısı onu çox istəyirdi. Həyatsevər idi. Bir dəfə şəhidliklə bağlı söhbət düşəndə, gülə-gülə dedi ki, mən 93 il yaşayacağam. Mən də onun bu sözünə çox inanmışdım. Elə bilirdim ki, Seymura heç nə olmayacaq, dediyi kimi 93 il yaşayacaq. Amma təəssüf ki, şəhid oldu...

### "İnanmadım, tez səngərə tərəf qaçdım"

Elşən Seymurun şəhid olma anından da ürəkağrısı ilə söhbət açdı. Bildirdi ki, sentyabrın 19-da ordumuz antiterror əməliyyatına başlayanda, Seymur da şəxsi heyətlə bərabəriymiş: "Axşamüstü saat 4 olardı. Dedilər yaralılar var. Onlardan birinə Seymur tibbi yardım göstərdi, o birinə mən. Sonra məni görəndə soruşdu ki, yaralını təxliyə edəndə niyə mən də getmədim. Dedim ki, səni tək qoymaq istəmədim.

Bir qayanın dibinə çəkilib oturmuşduq. Dedilər, yenə yaralı var. Güllə yağışı altında yaralılara tibbi yardım göstərdik. Onları təxliyə etdik. Şəhidimiz var idi, onu da döyüş zonasından çıxardıq. Hava qaralmışdı. Seymur mənə dedi ki, get, lazım olsa, yenə köməyə gələrsən. İkimizin burada qalmağına ehtiyacı yoxdur. Mən öz bölməmə getdim, o isə orada qaldı.

Sentyabrın 20-si səhər saat 10-11 radələri olardı. Dedilər, yenə yaralılar var. Köməyə getdik. Mən yaralılara ilkin tibbi yardım göstərəndə, həkimlərdən biri sürücü ilə irəli getdi. Qayıdanda gördüm ki, ikisinin də gözləri dolub. Səbəbini soruşdum. Kədərlə Seymurun şəhid olduğunu dedilər. Onların bu sözünə inanmadım. Tez səngərə tərəf qaçdım. Ora çatanda gördüm ki, xəbər doğru imiş... Mərmi qəlpəsi onu tutub, oturduğu yerdə şəhid olmuşdu. Hamımız onun itkisinə çox kədərləndik. Hələ də bu hadisənin təsirindəyəm. Kaş belə olmazdı...

**Qabil ZİMİSTANOĞLU**



# Şuşanın azad olunması Zəfər yürüşümüzün zirvəsi idi

## Vətən müharibəsində qələbəmizin 3-cü ildönümünə həsr olunmuş Tələbə Elmi Konfransı keçirilib

**Noyabrın 6-da ATU-nun İctimai fənlər kafedrasında Ümummilli Lider Heydər Əliyevin 100 illiyi çərçivəsində Vətən müharibəsində qələbəmizin 3-cü ildönümünə və suverenliyimizin bərpasına həsr olunmuş Tələbə Elmi Konfransı keçirilib.**



Əvvəlcə Ümummilli Liderin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin xatirəsi anılıb.

Kafedranın müdiri, professor Qoşqar Əliyev giriş nitqində bildirib ki, Ulu Öndər Heydər Əliyev müstəqil və sabit inkişaf edən Azərbaycan dövlətini yaratmaqla yanaşı, xalqımız qarşısında daha bir əvəzsiz xidmət göstərərək milli dövlətçilik məktəbi formalaşdırıb və ölkəmizin gələcək inkişafını təmin edəcək layiqli siyasi varis yetişdirib. O qeyd edib ki, 44 günlük Vətən müharibəsi zamanı ordumuzun həyata keçirdiyi uğurlu döyüş əməliyyatları dünya hərb sənətinə yeniliklər gətirib: "Mülki əhaliyə ziyan vurmadan aparılan hərbi əməliyyatlar barədə hələ uzun müddət danışılacaq, böyük epopeyalar, filmlər, əsərlər yaranacaq. Azərbaycan Ordusunun sonuncu dəfə bu il sentyabrın 19 və 20-də 23 saat 51 dəqiqə ərzində həyata keçirdiyi antiterror tədbirləri nəticəsində Qarabağda separatçılığın kökü birdəfəlik kəsilib. Bununla da Xankəndi, Xocalı, Ağdərə, Əsgəran, Xocavənd şəhərləri separatçılardan təmizlənib və Azərbaycan dövləti bütün ərazilərində öz suverenliyini tam bərpa edib. Azərbaycan xalqı üç ildir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi, şəhidlərimizin canı, qazilərimizin qanı ilə qazandığı tarixi Zəfərin qürurunu yaşayır. Bu gün uzun illər erməni işğalı altında olmuş doğma yerlərimizdə üçrəngli bayrağımız dalğalanır. İndi qürurla deyə bilirik ki, Azərbaycan dövləti qalib dövlət, xalqımız isə qəhrəman xalq olduğunu bütün dünyaya sübut edib. Bununla da Cənubi Qafqazda əmin-amanlıq üçün zəmin yaranıb və qazanılan tarixi Zəfərlə ədalət bərpa olunub".

Konfransda çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov və Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli 2020-ci ilin 8 noyabrında milli qürurumuzun rəmzi olan mədəniyyət paytaxtımız Şuşanın azad olunması ilə Zəfər yürüşümüzün öz zirvəsinə çatdığını vurğulayıblar. Onlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun hərbi əməliyyatı nəticəsində 30 il düşmən əsarətində olan torpaqlarımızın işğaldan azad edilərək, regionda yeni reallıq yarandığını bir daha diqqətə çatdırıblar. Şanlı Qələbədən sonra uzun müddət erməni vandalizminə məruz qalmış əzəli torpaqlarımızın sürətlə dirçəldiyini vurğulayan natiqlər bu gün qəhrəman şəhidlərimizin ruhunun şad olduğuna və doğma Qarabağımızın tezliklə cənnətə çevriləcəyinə əminliklərini ifadə ediblər.

Bundan sonra söz məruzəçi tələbələrə verilib. Jalə Qocayeva "Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanın memarıdır", Firuzə Hüseynova "44 günlük şanlı Zəfər savaşı", Selcan Əhmədzadə "Üçrəngli bayrağımızla fəxr edirik", Nəcibə Allahverdiyeva "Qələbəmiz düşmənə göz dağıdır", Aydan Verdiyeva "Torpaqlarımızın azadlığı və suverenliyimizin bərpası", Fuad Muhammed "II Qarabağ müharibəsində Azərbaycan və Türkiyə qardaşlığı", Leyla Cahangirli "Böyük qayıdış tarixi hadisədir", Bəhram Əliyev "II Qarabağ müharibəsində iştirakımın xatirələri" mövzularında çıxış ediblər.

Məruzələrdə xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin xilaskarı olduğu dönə-dönə vurğulanıb. Onun siyasi varisi Prezident İlham Əliyevin düşmən üzərində Azərbaycanın çoxəsrlik tarixində bənzəri olmayan şanlı Zəfər qazanaraq adını torpaqlarımızın xilaskarı kimi əbədilik tarixə həkk etdirdiyi diqqətə çatdırılıb.

Tədbirin sonunda məruzəçi tələbələrə və onların rəhbərlərinə konfransın sertifikatı təqdim olunub.

# Qələbəmizin ildönümü münasibətilə guşə təşkil olunub




**Qidalanma və tibbi ekologiya kafedrasında Zəfər Günü münasibətilə guşə təşkil edilib. Kafedranın əməkdaşları, tələbələr açılışda iştirak edib. Açılış zamanı Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Kafedranın müdiri, dosent Fəridə Əli tarixi Zəfərimizin 3-cü ildönümü ilə əlaqədar təşkil olunmuş guşədə şəhidlərimizin, o cümlədən həkim şəhidlərin fotolarının yer aldığını bildirib. O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun göstərdiyi bənzərsiz qəhrəmanlıqdan, həkim şəhidlərin misilsiz fədakarlığından söhbət açıb: "Bilirsiniz ki, bu il Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə Əliyevanın 100 illik yubileyləri, Ali Baş Komandan İlham Əliyevin tərəfindən prezident seçilməsinin 20 illiyi tamam olub. Guşəmizdə bununla əlaqədar da fotolar öz əksini tapıb. Cənab Prezidentin oktyabrın 15-də Xankəndində Azərbaycan Bayrağını ucaltması olduqca əlamətdar hadisədir. Bu hadisə hər bir azərbaycanlının ürəyincədir.

Guşədə erməni vandalizmi və Xocalı faciəsini əks etdirən fotolar da yer alıb".

Tədbirdə ölkə başçısının fəaliyyətinə işıq salan nəşrlər, Azərbaycan xalçaları, musiqimiz və s. barədə müxtəlif vaxtlarda çap olunmuş kitablar da nümayiş etdirilib.

Hindistanlı tələbələrdən Samrin Xan, Nahida Şahta Xan "Təbib" qəzetinin əməkdaşına açıqlamalarında torpaqlarımızın 20 faizinin 30 ilə yaxın erməni işğalında olduğu, 2020-ci ilin Vətən müharibəsində ordumuz tərəfindən azad edildiyi barədə məlumatlı olduqlarını bildiriblər: "3 il öncə ordunuz tarixə qızıl hərflərlə düşən bir qəhrəmanlıq göstərərək torpaqlarınızı işğaldan azad etdi. Kafedranın əməkdaşları tərəfindən yaradılan guşə şəhidlərin ruhuna göstərilən bir ehtiramdır. Biz bunu təqdir edirik".

# Bioloji kimya kafedrasında Zəfər Günü qeyd edilib

**Bioloji kimya kafedrasında Zəfər Günü ilə əlaqədar tədbir keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Kafedranın müdiri, professor Gülnarə Əzizova Zəfər Günü ilə bağlı tədbirin kafedranın Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə təşkil olunduğunu bildirib: "Bu gün fəxr etdiyimiz, qürur duyduğumuz bir gündür. Bilirsiniz ki, 30 ilə yaxın müddətdə torpaqlarımız ermənilər tərəfindən işğal altında saxlanıldığından, dünyada bizi məğlub xalq kimi tanıyırdılar. Amma artıq 3 ildir ki, qalib bir dövlət, qalib xalqıq. Xankəndində hərbi parad keçirilməsi olduqca əlamətdar bir hadisədir. Arzularımız Ali Baş Komandanın rəhbərliyi, müzəffər ordumuzun mətinliyi ilə həyata keçdi. Biz düşmən üzərində tam qələbə qazandıq. Buna görə hər birimiz Ali Baş Komandana və ordumuza borcluyuq".

Tədbir zamanı kafedranın əməkdaşları Ellada Hüseynova, Hikmət Məmmədov qələbədən bəhs edən, şəhidlərimizin xatirəsinə ithaf edilmiş şeirlər səsləndiriblər.

Kafedranın baş müəllimi, "Əsgərə xatirə kitabı" layihəsinin fəxri üzvü Firəngiz Quliyeva da qələbəmizin əhəmiyyətindən söhbət açıb. O, layihə çərçivəsində işğaldan azad edilmiş hərbi hissələrdə zabit və əsgərlərimizlə görüşlərindən danışıb, universitetimizin əməkdaşları, tələbələr tərəfindən "Əsgər kitabxanası"na kitablar hədiyyə edilməsi haqda məlumat verib.

Tədbir Vətən müharibəsini əks etdirən filimin nümayişi ilə başa çatıb.

# Həkimlərimiz Vətən qarşısında borclarını şərəflə yerinə yetirib

**Azərbaycan Tibb Universitetinin Normal fiziologiya kafedrasında 8 Noyabr - Zəfər Günü münasibəti ilə tədbir keçirilib. Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Kafedra müdiri, professor Arif Məmmədov Zəfər Günü ilə bağlı kafedra əməkdaşlarını təbrik edib. O, 30 ilə yaxın işğal altında qalmış ərazilərimizin azad olunması, düşmən üzərində tam qələbənin əldə edilməsi istiqamətində Ali Baş Komandanın apardığı ardıcıl və məqsədyönlü siyasətdən, Müzəffər Ordumuzun mətinliyindən və qələbəmizin əhəmiyyətindən söhbət açıb. Bildirib ki, bu yolda xalqımız çoxlu şəhidlər verib, minlərlə qazimiz var.

Professor A.Məmmədov, həmçinin universitetin əməkdaş və məzunlarının 44 günlük Vətən müharibəsində göstərdiyi rəşadət və qəhrəmanlıqları da xatırladıb, ağxalatlıların Vətən qarşısında borclarını şərəflə yerinə yetirdiklərini qeyd edib.

Universitetin müəllimi, şair Mehri Seyidbəyli çıxışında ürək sözlərini söyləyib, həkimlərə həsr etdiyi şeirini səsləndirib. O, şəhid həkimlərimizin xidmətinin heç zaman unudulmayacağını, onların xatirələrinin xalqmız tərəfindən hər zaman yad ediləcəyini bildirib.



Kafedranın dosentləri Zemfira Baxşıyeva, Rəşid Mahmudov da son 200 ildəki ən böyük qələbəmizə və bayram paradının Xankəndidə keçiriləcəyinə görə sevinclərini dilə gətirib, ölkə başçısına və ordumuza sonsuz etibar və inamlarını ifadə ediblər.

Dosent Z.Baxşıyeva yeni nəşr olunmuş və nəşrə hazırlanan dərslik, dərs vəsaitləri ilə bağlı da tədbir iştirakçılarına məlumat verib.

Tədbirin sonunda Zəfər Bayramından bəhs edən sənədli film nümayiş olunub. Filmdə 44 günlük müharibə zamanı ordumuzun göstərdiyi qəhrəmalıqlardan ayrı-ayrı fraqmentlər, həkimlərimzin fəaliyyəti, ölkə başçısının çıxışları öz əksini tapıb.

# Yeni dövrdə valideyn-uşaq münasibətləri mövzusunda təlim keçirilib



Azərbaycan Pediatrlar Assosiasiyası mütəmadi olaraq uşaqlarla bağlı səhiyyə-sağlamlıq perspektivlərinin müəyyənləşdirilməsi, ana və uşaqların sağlamlığına, rifahına qayğı siyasəti, məktəbli uşaq və yeniyetmələr arasında reproduktiv sağlamlıqla bağlı maarifləndirmə təlimlərinin təşkilinə xüsusi diqqət yetirir.

Bu məqsədlə Assosiasiya "XXI əsrdə valideyn-uşaq münasibətləri. Milli-mənəvi və ailə dəyərlərinə əsaslanmış tərbiyə prosesi" mövzusunda təlim kursu keçirib. Təlim, eyni zamanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Azərbaycan İlahiyyat İnstitutu və "Ümidli Gələcək" STİB-in birgə təşkilatçılığı ilə baş tutub.

Təlimin ilk günü Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, MDB Ölkələrinin Pediatrları Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə açılış nitqində valideyn və uşaq münasibətləri fonunda yeni nəslin fiziki və əqli sağlamlığının qorunması baxımından kursun əhəmiyyətindən dasnışıb, zəruri tövsiyələr verib.

Təlimdə ekspertlər müasir dünyada ailənin vəzifələri və məqsədləri, uşaqları tərbiyə üsulları, erkən uşaqlıq dövründə inkişafa dəstək, reproduktiv sağlamlıq və cinsi tərbiyə, uşaqlarla uğurlu ünsiyyətin prinsipləri, şagird şəxsiyyətinin formalaşdırılmasına məktəb-ailə münasibətlərinin təsiri və digər mövzularda təqdimatlar ediblər.

Noyabrın 1-də başa çatan üç günlük təlimlərin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# ATU-da Zəfər Gününə həsr olunmuş şahmat turniri keçirilib



**Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində "Təbib" idman klubunun təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələri arasında açıq şahmat turniri keçirilib.**

Turnirdə ATU komandası ilə yanaşı, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Şah GAMBİTİ Şahmat Klubu və "Davam" Gənclər Hərəkatının 43 tələbəsi öz gücünü sınayıb.

Yarışlar şahmat bölməsinin məşqçi-müəllimi, əməkdar məşqçi Kübra Bacaraninin hakimliyi ilə qarışıq formada, İsveçrə sistemi üzrə FİDE qaydalarına əsasən təşkil edilib və 7 turdan ibarət olub. Gərgin mübarizədə ən çox xal toplayan İlyas Qarayev (BMU) I, Qulam Məmmədov (UNEC) II, Fərid Məlikov (ATU) III yerin sahibi olublar. Yasəmən Məmmədova (ADU) turnirin "ən yaxşı qadın iştirakçısı" seçilib.

Yarışların mükafatlandırma mərasimində ATU-nun Xarici tələbələrlə iş üzrə dekanı Natiq Bayramov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov, Nəsimi rayon gənclər və idman sektorunun baş məsləhətçisi Surac Axundov və digər universitetlərin nümayəndələri çıxış edərək, ATU-da keçirilən ciddi və obyektiv yarışların tələbələr üçün əhəmiyyətli olduğunu bildiriblər. Bağlanış mərasiminin sonunda "Təbib" idman klubunun sədri Qələndər Aslanov qarşıdan gələn Zəfər Günü münasibətilə iştirakçıları və qonaqları təbrik edib, onlara uğurlar arzulayıb.

Sonda iştirakçı komandalara təşəkkürnamələr və kitab hədiyyəsi, turnirin qaliblərinə isə Bakı Şəhər Gənclər və İdman İdarəsi adından medal, diplom və kuboklar təqdim olunub.

**44 günlük Vətən müharibəsində iştirak edib, böyük qələbənin qazanılmasına öz töhfəsini verənlər arasında Azərbaycan Tibb Universiteti ailəsinin üzvləri də var. Onlardan biri İctimai səhiyyə fakültəsinin 2-ci kurs tələbəsi Əlirza Cəfərovdur. O, Fizioterapiya və tibbi reabilitasiya ixtisası üzrə təhsil alır.**

# Vətən müharibəsi veteranı tələbəmiz

## İctimai səhiyyə fakültəsinin tələbəsi Əlirza Cəfərov Xocavənd və Ağdam istiqamətində döyüşüb



Həkim olmaq Ə.Cəfərovun uşaqlıq arzusudur. Bu səbəbdən 2019-cu ildə Xırdalan şəhər 2 saylı tam orta məktəbini bitirəndən sonra Tibb Universitetinə daxil olmaq istəyib. Amma həmin il arzusuna çata bilməyib. Özünü təkrar sınayıb. Bu dəfə isə COVİD-19 pandemiyası əngəl olub. Belə ki, Əlirza pandemiya ilə əlaqədar imtahan verə bilməyib. 2020-ci ilin aprelində hərbi xidmətə çağırılıb, Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilib.

Sentyabrda isə Vətən müharibəsi başlayıb: "Əvvəldən axıradək müharibədə iştirak etdim. Hərbi hissəmiz Xocavənd və Ağdam rayonları istiqamətində döyüşürdü. 2021-ci il noyabrın 21-dək Xocavənddə hərbi xidmətimi davam etdirib, oradan tərxis olunmuşam".

Hərbi xidmətdən qayıdan Əlirza arzusunu gerçəkləşdirmək üçün yenidən hazırlaşıb. Bu dəfə yüksək nəticə əldə edib. 581 balla ATU-ya qəbul olunub. Müəllimlərindən və tədrisin keyfiyyətindən razılıqla danışır.

Deyir, heç vaxt inanmazdım ki, mən hərbi xidmətdə olanda müharibə başlayacaq, qələbənin əldə edilməsində xidmətlərim olacaq: "Görünür, bu da bir qismət, alın yazısı imiş. Çünki mənim planımda əvvəl ali məktəbə daxil olmaq, sonra hərbi xidmətə getmək idi. Bunların yeri dəyişdi. Amma sonunda sevdiyim universitetə daxil ola bildim".

Əlirza Cəfərovun bir arzusu da var: Xankəndini ziyarət etmək. İstəyir ki, Xankəndini, Şuşanı, Xocalını seyr edə-edə qələbəmizin havasını udsun.

Qeyd edək ki, müharibə veteranı olan tələbəmiz Ağdamın, Xocavəndin azad olunmasına görə və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

# Əcnəbi tələbələr üçün futzal turniri yekunlaşıb

**Oktyabrın 7-dən başlayaraq Tədris İdman Kompleksində ATU-nun əcnəbi tələbələri arasında futzal yarışları keçirilib. 4 həftə davam edən yarışların final mərhələsi 28 oktyabrda yekunlaşıb.**



Yarışların bağlanış mərasimində çıxış edən ATU-nun Əcnəbi təhsilalanlarla iş üzrə dekanı Natiq Bayramov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov və Nəsimi rayon gənclər və idman sektorunun baş məsləhətçisi Surac Axundov bu turnirin əcnəbi tələbələr üçün ilk dəfə ayrıca keçirilməsinə, onlara göstərilən diqqət və qayğıya görə ATU-nun rəhbərliyinə və "Təbib" idman klubunun sədrinə təşəkkürlərini bildirib, tələbələrə uğurlar arzulayıblar.

Klubun sədri, əməkdar məşqçi Qələndər Aslanov əcnəbi tələbələr üçün təşkil olunan belə yarışların digər idman növləri üzrə də davam etdiriləcəyini söyləyib. Qaliblər Bakı Şəhər Gənclər və İdman İdarəsinin medal, diplom və kuboklarına layiq görülüblər.

**Bu günlərdə Anesteziologiya və reanimatologiya kafedrasının əməkdaşları tərəfindən tərtib olunmuş "Anesteziologiya, Reanimatologiya və İntensiv terapiyada praktik vərdişlər" adlı dərs vəsaiti işıq üzü görüb.**

# Yeni dərs vəsaiti işıq üzü görüb




ATU-nun "Təbib" nəşriyyatının ərsəyə gətirdiyi bu vəsait Universitetdə aparılan islahatlar, o cümlədən bacarıqyönlü tədrisin həyata keçirilməsi nöqteyi-nəzərindən günün tələblərinə uyğundur. Kitab haqqında müəllimlər, tələbələr və rezidentlər tərəfindən müsbət rəylər səslənməkdədir.

Kafedranın müdiri, professor İsfəndiyar İsmayılovun redaktəsi ilə hazırlanan, 242 səhifə, 9 bölmədən ibarət olan bu dərs vəsaitində xəstənin vəziyyətinin qiymətləndirilməsi, damar yolunun əldə olunması, xarici tənəffüsün, qan dövranının bərpası üsulları, kardio-pulmonar resussitasiya, boşluqların punksiyası və drenajı, müasir detoksikasiya metodları, sedasiya və analgeziya tədbirləri, geniş tətbiq edilən düsturlar və normativlər öz əksini tapıb. Kitabın üstün cəhətlərindən biri odur ki, hər bir praktik vərdişin aparılmasına göstərişlər, əks-göstərişlər, tələb olunan anesteziya, üsulun çatışmazlıqları və ağırlaşmaları ətraflı şərh olunub. Praktik vərdişə aid mətnin yanında rəngli illüstrasiya yer alıb ki, bu da bacarığın mənimsənilməsini asanlaşdırır.

Dərs vəsaitinin tərtibi zamanı müəlliflər ən müasir elmi-tibbi mənbələrə müraciət edərək, mövcud qiymətli materiallardan səmərəli bəhrələniblər. Ana dilimizdə bu qəbildən olan ilk dərs vəsaiti kimi, kifayət qədər oxunaqlı, asan başa düşülən və qavranılan olmaqla yanaşı, kitab nəfis və cəlbedici tərtibatı ilə diqqətəlayiqdir.

## Allah rəhmət eləsin!

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti İlsur Novruzova qayınanası

**Tahirə Şirəliyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi İlqar Tahirova qardaşı

**Abdulkərim Tahirovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın assistenti Gülnarə Əliyevaya dayısı

**Məhəmmədəli Rüstəmovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əsaslı Kitabxananın kollektivi iş yoldaşları

**Zərifə Musayevanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Etibarsız sayılır** Səfərli Mehriban Asif qızının (qrup 219A10b) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**

- Patoloji fiziologiya kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer

**Kafedraların dosentləri:**

- Farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 2 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Neyrocərrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- Uşaq stomatologiyası kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Urologiya kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 2 yer (0,75 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Ağciyər xəstəlikləri kafedrası - 2 yer

**Kafedraların baş müəllimləri:**

- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Sitologiya, embriologiya və histologiya kafedrası - 2 yer
- Xarici dillər kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Tibbi və bioloji fizika kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08**

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın artırılması" mövzusunda təlimlərdə iştirakı barədə sertifikat.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**


Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0019
Sayı 800